**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# YETKİNLİK YAŞINA ÇATMAYAN ŞƏXSLƏR TƏRƏFİNDƏN TÖRƏDİLƏN CİNAYƏTLƏRİN İSTİNTAQININ TAKTİKİ-PROSESSUAL PROBLEMLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti |
| Elm sahəsi: | Hüquq |
| İddiaçı: | **Abbaszadə Nərgiz Mirzəli qızı** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Kriminalistika və məhkəmə ekspertizası" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru, professor
**Kamil Nazim oğlu Səlimov**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, dosent
**Mətanət Paşa qızı Əsgərova**

Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent
**Allahverdi Mirzağa oğlu Mahmudov**

Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Aysel Zakir qızı Kişiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Hüquq elmləri doktoru, professor
**Aydın Xankişi oğlu Rüstəmzadə**
__________
imza

Dissertasiya şurasının elmi katibi: Hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**
__________
imza

Elmi seminarın sədri: Hüquq elmləri doktoru, professor
**Midhəd Seyidəhməd oğlu Qəfərov**
__________
imza

# İŞİN ÜMUMİ XARAKTERİSİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dövlətimizin müstəqillik əldə etməsi onun dünya dövlətləri içərisinə tamhüquqlu subyekt kimi daxil olması demək idi. Demokratik hüquqi dövlət qurmaq iddiasında olan dövlətimizin dünya birliyinə inteqrasiyası və onun tanınması qanunvericiliyin beynəlxalq hüquq normaları və prinsiplərinə müvafiq olaraq təkmilləşdirilməsini tələb edirdi.

Respublikamızın müstəqillik qazanması, cəmiyyətdə baş verən iqtisadi siyasi və sosial-mədəni sahədə köklü islahatların aparılması hüquqi islahatlarsız heç bir səmərə verə bilməzdi. Təbii ki, cəmiyyətin inkişafının hüquqi bazası yaradılmalı və bu hüquqi baza cəmiyyətdə mövcud münasibətləri tənzimlənməli və cəmiyyətin ümumi rifahı naminə bir inkişaf pilləsindən daha yüksək inkişaf pilləsinə aparılmasını təmin etməli idi. Bu istiqamətdə ulu öndər H.Ə.Əliyevin şəxsi nəzarəti və rəhbərliyi altında hazırlanan və qəbul edilən müstəqil Azərbaycanın demokratik hüquqi dövlətlər kimi beynəlxalq standartlara tam cavab verən Konstitusiyası cəmiyyətdə çoxcəhətli və fundamental islahatlar üçün mühüm baza yaratdı. 1995-ci il Konstitusiyasının qəbulundan sonrakı qısa müddət ərzində hüquqi islahatlar geniş vüsət aldı, məhkəmə hakimiyyəti orqanları sisteminin yaradılması istiqamətində qanunlar qəbul edildi. Bütün qanunların ideya qayəsi, hüquqi dövlət qurulması, hakimiyyətlərin bölünməsi, məhkəmə hakimiyyətinin müstəqilliyi, Konstitusiyanın 12-ci maddəsində insan hüquqlarının aliliyinin təmin edilməsi, sosial rifaha nail olunması müddəaları və s. ümumbəşəri demokratik ideya və prinsiplər təşkil edirdi. Azərbaycan Respublikasında insan hüquqlarının təmini dövlətin ali məqsədi olması əsas qanun olan 1995-ci il tarixli Azərbaycan Respublikası Konstitusiyasında bilavasitə təsbit edilən fundamental müddəa hesab edilir.

Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaş hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədidir.

Bu konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə uyğun tətbiq edilir.

Uşaq hüquqları isə insan hüquqları içərisində ən həssas və qorunması xüsusi diqqət və mexanizm tələb edən fundamental hüquqlardan biridir. Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsi Nikah hüququna həsr edilmişdir. Bu əsas insan hüquqları kateqoriyasından olan nikah hüququ həm nikah, həm də uşaq hüquqlarının təminində baza rolunu oynayır. Belə ki, AR Konstitusiyasının 34-cü maddəsinə əsasən nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq və uşaqlıq qanunla mühafizə edilir.

Dövlətçiliyimizin sonrakı tarixində müstəqil siyasi və hüquqi fəaliyyətin beynəlxalq müstəvidə tanınması zərurəti və Azərbaycanın 2001-ci il tarixdə Avropa Şurasına qəbulu və Avropa məhkəməsində müstəqil olaraq peşəkar hakim mandatı ilə təmsil olması, həmçinin Azərbaycanın bir sıra beynəlxalq Konvensiyaları ratifikasiya etməsi insan hüquqlarına həm daxili, həm də beynəlxalq müstəvidə yeni yanaşmaya gətirib çıxardı.

Müstəqil dövlətin hüquqi sisteminin qurulmasında "Konstitusiya məhkəməsi haqqında" qanun, "Məhkəmələr və hakimlər haqqında" qanun, "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat axtarış fəaliyyəti haqqında" qanun, eləcə də yeni Cinayət və Cinayət-Prosessual Məcəllələrinin qəbulu mühüm rol oynadı. Bununla bərabər, müvafiq qanunvericilik aktlarının qəbulundan sonra onlara edilən əlavə və dəyişikliklər onu deməyə əsas verir ki, bütün sahələrdə dinamik və davamlı inkişafda olan respublikamızda qanunvericiliyin tədqiq edilməsi və insan hüquqları kontekstində cəmiyyətin inkişafı sürətinə müvafiq gələn qanunların qəbul edilməsi və qüvvədə olan qanunlara müntəzəm olaraq dəyişiklikər edilməsi, eyni zamanda nəzəri tədqiqatların aparılması zərurətini də doğurur.

Cinayət-Prosessual Məcəllə cinayət mühakimə icratının həqiqi çəkişmə və tərəflərin hüquq bərabərliyi əsasında qurulması ideyasını əxz etmiş, cinayət təqibinin və ondan müdafiənin və işlərə baxılması və həll edilməsi üçün rəhbər ideyalar sistemini təsbit etmiş, bu ideyaların bütün cinayət-prosessual hüquq normalarının ruhuna nüfuz etməsinin, istintaq və məhkəmə təcrübəsinin insan hüquqlarının aliliyi, qanunçuluq və çəkişmə və s. prinsipial müddəalara əsasən formalaşmasının təmin edilməsinə xidmət etməsidir. Məcəllə prosesual formanı yeni qaydalar

hesabına zənginləşdirmiş, diferensiallaşdırma istiqamətində əsaslı tənzimləməyə nail olmuşdur. Cinayət-prosessual qanunvericilikdə prosessual formanın vahidliyi ideyası gözlənilməklə subyekt, yaş, yerinə yetirdiyi dövlət, ictimai siyasi funksiya, xarici siyasətlə bağlı beynəlxalq öhdəliklər nəzərə alınmaqla əlavə təminatlar və qaydalar müəyyən edilmişdir. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 10-cu bölməsi L fəsli yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətlərini ifadə edən xüsusiləşmiş qaydalar müəyyən etmişdir. Nəzərə alsaq ki, belə bir tənzimləmə nə 1923-cü il AZ.SSR CPM-də, nə də 1961-ci il AZ.SSR CPM-də nəzərdə tutulmurdu, qanunvericinin bu mövqeyi özlüyündə yetkinlik yaşına çatmayanlar barəsində cinayət işləri üzrə icraata xüsusi diqqət yetirilməsinin vacib olmasını bir daha təsdiq edir.

Mövzunun aktuallığı bir sıra digər amillərlə də şərtlənir. Bu, ilk növbədə yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatına beynəlxalq ictimaiyyətdə yanaşmaların dəyişməsi ilə izah edilə bilər. Artıq bu kateqoriya şəxslər barəsində uzun müddət dominant olmuş cəza ədliyyəsi ideyası nə yetkinlik yaşına çatmayanların, nə də daha yaxşı, təhlükəsiz yaşamaq, yüksək sosial rifah halında yaşamaq arzusunda olan cəmiyyətin tələbatına cavab vermir. Cəmiyyət alternativlər axtarışındadır. Bərpaedici ədliyyə yetkinlik yaşına çatmayanların və cəmiyyətin mənafeyinə daha çox müvafiqdir. Dünya ictimaiyyəti və eləcə də bu sahədə beynəlxalq sənədlərin təhlili belə bir fikri sözsüz təsdiq edir. Digər tərəfdən tədqiqat mövzusunun aktuallığı beynəlxalq standartlar kontekstindən cinayət-prosessual hüquq və kriminalistika elm sahələrində yetkinlik yaşına çatmayanlar barəsində icraatla bağlı sistemləşdirilmiş biliklərə əsaslanan düzgün qurulmuş konsepsiyaya ehtiyacla şərtlənir. Xüsusilə vurğulamaq lazımdır ki, yetkinlik yaşına çatmamışlar barəsində cinayət mühakimə icraatı kompleks xarakterli müddəaları özündə birləşdirən qaydaları ehtiva etdikdə bu kateqoriya şəxslərin tərbiyə və islah olunması vəzifəsinin yerinə yetirilməsinə xidmət edə bilər. Dünya təcrübəsi də bu istiqamətdə inkişaf edir. Digər cəhət kimi qeyd etmək lazımdır ki, yetkinlik yaşına çatmayanlar barədə icraatın tənzimlənməsi artıq müasir hüquqi dövlətlərin cinayət və cinayət-

prosessual hüquq siyasətinin və qanunvericiliyində əsas və müstəqil istiqamətlərdən birini təşkil edir. Bu da müxtəlif dövlətlərin qanunvericiliyində müxtəlif şəkildə əks olunur. Məhz bu müxtəlifliklərin öyrənilməsi və təhlili hər bir dövlətin milli hüquq sisteminin xüsusiyyətləri nəzərə alınmaqla optimal variantın müəyyən edilməsinə imkan yaradır. Bu da tədqiqatın aktuallığına dəlalət edən digər amillərdəndir. Artıq min illərin təcrübəsi təsdiq edir ki, cinayətkarlığın səviyyəsi yüksək olan cəmiyyətdə inkişafdan danışmaq tezdir. O cəmiyyətlərdə ki, yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın səviyyəsi və dinamikası yüksəkdir, həmin cəmiyyətlərin gələcəyi də sabitlik və təhlükəsizlikdən uzaqdır. Azərbaycan Respublikasında müxtəlif istiqamətlərdə davamlı islahatların həyata keçirilməsi cinayətkarlığın azalmasına təsir etsə də, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətkarlığın vəziyyətinin heç də ürəkaçan olmadığını görmək mümkündür. Bugünkü yeniyetmə sabahın valideyni, müəllimi, həkimi, əli silahlı vətən əsgəridir və s. cəmiyyət – ailə, dövlət – vətən aspektində yanaşdıqda yeniyetmələrin cəmiyyətə sağlam ruhda tərbiyə olunması və yaxud cəmiyyətlə münaqişəyə girməsinin qarşısının alınması, eləcə də münaqişədə olanların cəmiyyətə faydalı vətəndaşlar kimi qayıtmasının təmin edilməsi mühüm sosial siyasi məsələdir.

Mövzunun elmi işlənmə dərəcəsi. Azərbaycan Respublikasının cinayət prosesində yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin araşdırılmasının taktiki və prosessual aspektlərinə həsr edilmiş tədqiqat işi aparılmamışdır.

Bununla belə, milli müəlliflər arasında yetkinlik yaşına çatmayanlar barəsində icraatın müəyyən xüsusiyyətlərinə həsr edilmiş elmi-tədqiqat işləri aparmış E.A.Nəsibovu (Yetkinlik yaşına çatmayanların işləri üzrə ibtidai istintaqın xüsusiyyətləri. Hüquq elmləri namizədi dissertasiyası. Bakı, 2004-cü il) və S.A.Əliyevanı (Məhkəmə, prokurorluq, polis orqanlarının və vəkillərin fəaliyyətində yuvenal ədliyyə elementləri. Bakı, 2007-ci il) qeyd etmək mümkündür. Qeyd edilən əsərlərdən başqa 2006-cı ildə h.ü.e.d., prof. K.N.Səlimovun redaktorluğu, h.ü.e.d.prof.M.S.Qəfərovun həmmüəlifliyi ilə hazırlanmış «Yuvenal ədliyyə» adlı dərs vəsaitinin

çapını da qeyd etmək lazımdır. Lakin qeyd edilən mövzuların ayrı-ayrı məsələləri məqalələr, dərsliklər, yaxud kommentariyalar miqyasında h.ü.e.d., prof. C.H.Mövsümov və digərlərinin elmi redaktorluğu ilə hazırlanmış Cinayət-Prosessual Məcəlləsinin kommentariyasında, h.ü.e.d., prof. M.Ə.Cəfərquliyevin «Azərbaycan Respublikasının cinayət prosesi» adlı dərsliyində, h.ü.e.d., prof. F.Y. Səməndərovun, h.ü.e.d. prof. M.S.Qəfərovun, h.ü.e.d. prof. F.M.Abbasovanın ayrı-ayrı məqalələrində işıqlandırılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Azərbaycan Respublikasının cinayət prosesində yetkinlik yaşına çatmayanlar barəsində ibtidai araşdırma zamanı yaranan hüquq münasibətləri təşkil edir.

Tədqiqatın predmetini – yetkinlik yaşına çatmamışlar barədə cinayət mühakimə icraatının qaydaları, gücləndirilmiş təminatları təsbit edən cinayət-prosessual hüquq normaları, bu normaların tətbiq edilməsi təcrübəsini ilə bağlı istintaq və məhkəmə təcrübəsi materialları, beynəlxalq standartları əks etdirən sənədlər, yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə ibtidai araşdırma fəaliyyətinin tədqiqinə həsr edilmiş kriminalistika və cinayət-prosessual hüquq elminin mənbələri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya tədqiqatının əsas məqsədi Azərbaycan Respublikasının cinayət prosesində yetkinlik yaşına çatmayanlar barəsində ibtidai araşdırmanı taktiki və prosessual aspektlərinin əsas istiqamətlərini müəyyən etmək, bu sahədə ictimai münasibətləri tənzimləməni nəzərdə tutan normalar sisteminin təhlili əsasında bu şəxslər barəsində cinayət mühakimə icraatının xüsusiyyətlərini müəyyən etmək, tarixən formalaşmış taktiki tövsiyələri cəmiyyətin tələbatı və elmi-texniki tərəqqinin nailiyyətləri kontekstindən elmi-nəzəri fikrin süzgəcindən keçirməklə yetkinlik yaşına çatmayan şəxslər barəsində ibtidai araşdırmanın hüquqi tənzimlənməsi mexanizminin mövcud vəziyyəti barədə təsəvvür əldə etmək və bu hüquqi tənzimetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təcrübənin səmərəliliyinə xidmət edəcək konkret təklif və tövsiyələr sistemi işləyib hazırlamaqdır.

Dissertasiya tədqiqatının məqsədinə nail olmaq üçün qarşıya həll edilməli olan aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Yetkinlik yaşına çatmayanlar barəsində ibtidai araşdırma ilə bağlı cinayət-prosessual qanunvericiliyin və kriminalistik taktiki üsul və vasitələrin elmi-nəzəri təhlilini aparmaq və bu təhlil zamanı qanunvericiliyin və nəzəriyyənin inkişaf istqamətlərini və tendensiyalarını müəyyənləşdirmək.

2. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər barəsində ilkin yoxlama hərəkətlərinin aparılması, cinayət təqibinin başlanması xüsusiyyətlərini müəyyən etmək, cinayət işinin başlanması mərhələsində prosessual hərəkətlərin aparılmasının taktiki üsul və vasitələrini yetkinlik yaşına çatmayanın mənafeyi və cəmiyyətin mənafeyi kontekstində araşdırmaq.

3. Yetkinlik yaşına çatmayanlar barəsində cinayət təqibinə beynəlxalq müstəvidə alternativ həll yollarını öyrənmək, bu alternativlərin milli hüquq sistemində tətbiqi variantlarını müəyyən etmək.

4. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin ibtidai araşdırmasının taktiki və prosessual əsasları ilə bağlı bu kateqoriyadan olan şəxslər barəsində cinayət-prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi xüsusiyyətlərinin təhlil edilməsi;

5. Nəzarət altına vermə qətimkan tədbirinin mahiyyətinin yalnız yetkinlik yaşına çatmayan şəxslər barəsində tətbiq edilən qətimkan tədbiri kimi doktrinal qaydada şərh edilməsi;

6. Bu kateqoriya şəxslər tərəfindən törədilən cinayətlər barəsində prosessual məcburiyyət tədbirlərinin tətbiqinə dair praktiki tövsiyələr vermək;

7. Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət işinə xitam verilməsinin kriminalistik və prosessual aspektlərini təhlil etmək;

8. Bütövlükdə yetkinlik yaşına çatmayan şəxslər barəsində ibtidai araşdırmanı tənzimləyən qanunvericilik normalarının təhlili əsasında yetkinlik yaşına çatmayan şəxslər barədə icraatı kompleks tənzimləyən, yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatını tənzim edən normalara əlavələr edilməsinə dair təklifin əsaslandırılması.

**Tədqiqatın metodları.** Dissertasiya tədqiqatının metodologiyasını dialektik idrak təliminin əsas müddəaları təşkil etmişdir. Tədqiqatın metodikasına isə məntiqi idrak: analiz-sintez, müqayisəli hüquqşünaslıq sahələrarası tədqiqat, sistemli təhlil, sosioloji rəy sorğusu, təcrübənin ümumiləşdirilməsi və elmi idrakın bir sıra digər metodları təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın qarşıya qoyulan vəzifələrinə uyğun onun məzmunundan çıxış edərək aşağıdakı elmi nəticələr və qanunvericilik təkliflərinin sistemi irəli sürülmüşdür:

I. Elmi-nəzəri nəticələr:

1. İstənilən cəmiyyətdə müxtəlif reformasiyalar və dövrlər bir-birini əvəz etsə də danılmaz fakt olaraq qalan ən mühüm dəyərlərdən biri ailə təsisatı və bu təsisat daxilində hər bir cəmiyyətin kiçik hüceyrəsi olan ailə təsisatının layiqli vətəndaş tərbiyə etmək vəzifəsidir. Yetkinlik yaşı tamam olmayan şəxsləri beynəlxalq kateqoriya olan «Uşaq» anlayışı ilə əhatə etsək, əminliklə deyə bilərik ki, uşaqlar cəmiyyətin ən kiçik hüceyrəsidir. Uşaqların tərbiyəsində hər hansı ciddi pozuntu və davranışlarında ümumqəbul edilmiş prinsiplərdən əhəmiyyətli dərəcədə yayınma nəinki cəmiyyətin kiçik hüceyrəsi olan ailə, həmçinin, bütövlükdə cəmiyyət üçün ciddi təhlükədir. Tərəfimdən aparılan tədqiqat işinin araşdırılması zamanı yetkinlik yaşı tamam olmayan şəxslər tərəfindən törədilən cinayət hüquqi əməllərə dair Dövlət Statistika Komitəsinin müvafiq dövri hesabatları, 107 sayda yekun məhkəmə aktının ümumiləşdirilməsi, həmçinin «Quba rayonu oğlanlar üçün qapalı tipli tərbiyə müəssisəsində» tərbiyə edilən şəxslərə dair anketləşmə bazası, milli və beynəlxalq təcrübə müəyyən praktiki və doktrinal nəticələrə gəlməyə imkan verir.

Belə ki, bu ümumiləşmə yetkinlik yaşı tamam olmayan şəxslər tərəfindən törədilən cinayətlərin sadə statistikası olmayıb, özündə müəyyən kriminoloji səbəbləri ehtiva etməklə bu səbəbləri əhəmiyyətli dərəcədə aradan qaldırmağa imkan yarada biləcəkdir. Yetkinlik yaşı tamam olmayan şəxslər tərəfindən törədilən cinayətlər içərisində əhəmiyyətli yeri mülkiyyət əleyhinə cinayətlər, daha dəqiq olsaq, oğurluq cinayəti tutmuş olur. Buradan da yetkinlik yaşı tamam

olmayan şəxsləri cinayət törətməyə vadar edən ailə və cəmiyyət institutlarının qarşılıqlı vəhdəti araşdırılmış olur. Belə ki, ilk öncə bu cinayətin subyekti olan yetkinlik yaşı tamam olmayan şəxslər daha çox maddi rifahı az olan və münaqişəli ailə şəraitində tərbiyə edilən şəxslər hesab edilir.

2. Hesab edirəm ki, cinayət törətmiş yetkinlik yaşına çatmayana qarşı cinayət işinin başlanması mərhələsində cinayət prosesini həyata keçirən orqanlara yetkinlik yaşına çatmayanın cinayət törətməsi haqqında daxil olmuş informasiyaların yoxlanması, yetkinlik yaşına çatmayan şəxsi və ya onun valideynini müstəntiq tərəfindən çağırıldıqda taktiki üsul və metodlardan istifadə edilməlidir. Bununla yanaşı, müstəntiq cinayət törətmiş yetkinlik yaşına çatmayan cinayət törətməzdən əvvəl və cinayətdən sonra psixoloji durumunu tədqiq etməlidir.

Belə ki, müstəntiq tərəfindən qanunsuz və əsassız ittiham elan edilməsi zamanı cəmiyyətin kiçik rüşeymi olan yetkinlik yaşına çatmayan şəxsin dövlət orqanlarına etibarı azaltmaqla yanaşı, aparılacaq istintaqda ədalətlilik, işin hərtərəfli, tam və obyektiv araşdırılması prinsipinə inamı azalır, bu da istintaq zamanı müstəntiqlə olan psixoloji kontaktın qurulmasına mənfi təsir yaradır.

3. Təqsirləndirilən şəxs qismində cəlbetmə və ittihamın elan edilməsi istintaqın gedişində mühüm hərəkətlərdəndir və bu baxımdan yetkinlik yaşına çatmayan şəxsə ittiham elan edilməsi prosesində psixoloji ab-havanı müsbət formalaşdırmaq üçün yetkinlik yaşına çatmayanın tanıdığı və hörmət bəslədiyi müəllimin (psixoloq) iştirakı əhəmiyyətli olardı. Hesab edirik ki, dindirmə prosesində müəllimin (psixoloqun) iştirak etməsi məqsədəuyğundur. Belə ki, müəllim dindirmə prosesində müstəntiqlə yetkinlik yaşı tamam olmayan şəxslər arasında mənəvi-psixoloji kontaktın yaranmasına köməklik edir, uşaq və cavan şəxslərin psixologiyasını bilən mütəxəssis kimi yetkinlik yaşı tamam olmayan şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunmasında təminatçı rolunu oynayır.

Yuxarıda göstərilənləri tədqiq edərək hesab edirik ki, yetkinlik yaşı tamam olmayan şəxslərin dindirilməsində müstəntiqlə müəllimin birgə iştirakını nəzərə alaraq müəllimi cinayət prosesinin digər

iştirakçıları olan mütəxəssisdən və şahiddən fərqləndirmək lazımdır. Deyə bilərik ki, müəllim (psixoloq) cinayət prosesində müstəqil fiqur kimi çıxış edir. Onun hüquqi statusu ondan ibarətdir ki, dindirmə protokolu ilə tanış ola bilər və dindirilmə protokolunda müəyyən qeydiyyatların aparılmasını tələb edə bilər.

Qüvvədə olan qanunvericilik analoji qaydanı, yalnız 16 yaşına çatmayan və əqli zəifliyi olan yetkinlik yaşı tamam olmayan şəxslərə şamil edir.

4. Yetkinlik yaşına çatmayan şübhəli və ya təqsirləndirilən şəxsin dindirilməsi prosesində dindirmə haqqında protokolun yazılması dindirmə ilə eyni vaxtda aparılması düzgün olmazdı. Belə ki, dindirilən yetkinlik yaşına çatmayan şübhəli və ya təqsirləndirilən şəxsin diqqəti məhz protokolun yazılmasına yönəldiyi üçün müstəntiq tərəfindən seçilən taktiki üsulların həyata keçirilməsində çətinlik yaranacaqdır.

5. Cinayət-prosessual hüquq nəzəriyyəsində yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə cinayət işinin qurtarması və cinayət təqibinə xitam verilməsinin xüsusiyyətləri yetkinlik yaşına çatmayanların hüquqlarının və qanuni maraqlarının müdafiəsi zamanı əlavə təminatların yaradılması zərurətindən irəli gələrək xüsusi normalarla əks olunmalıdır. Yuxarıda şərh edilənlərə yekun vuraraq, qeyd edə bilərəm ki, xüsusi əsasları və qaydası bu qanunla müəyyən edilmiş cinayət işlərinə və cinayət təqibi yetkinlik yaşına çatmayanların işləri üzrə icraatın xüsusiyyətlərinin cinayət-prosessual sistemində xüsusi yer tutur. Yetkinlik yaşına çatmayanların hüquqlarının və maraqlarının müdafiəsinə əlavə təminatların yaradılması zərurəti, yetkinlik yaşına çatana qədər optimal təsir tədbirlərinin tətbiqi məqsədi ilə törədilmiş cinayətə görə cinayət prosesində konkret baş vermiş hadisəsinin bütün obyektiv və subyektiv xüsusiyyətləri və cinayətkarın şəxsiyyətini maksimum nəzərə alsaq, yetkinlik yaşı tamam olmayan şəxslərə cəza tətbiq edilmədən cinayət işinin qurtarmasına önəm verilməlidir.

Cinayət-prosessual hüquq nəzəriyyəsində prosessualist alimlər hesab edirlər ki, cinayət-prosessual hüquq qanunvericiliyində yetkinlik yaşı tamam olmayan şəxslər üzrə cinayət mühakimə

icraatının aparılması ümumi prinsiplərə və digər müddəalara tabeçilik xarakteri daşımaqla yanaşı, yetkinlik yaşı tamam olmayan şəxslərin törətdikləri cinayət işləri üzrə aparılan cinayət mühakimə icraatında onların yaş və psixi vəziyyətini, o cümlədən sosial statusunu nəzərə alaraq cinayət-prosessual qanununda yetkinlik yaşı tamam olmayan şəxslər üzrə cinayət mühakimə icraatının xüsusiyyətləri ayrı qaydalarla əks olunmalıdır. Cinayətkarın şəxsiyyətini maksimum nəzərə alsaq, yetkinlik yaşı tamam olmayan şəxslərə cəza tətbiq edilmədən cinayət işinin qurtarmasına önəm verilməlidir. Lakin istintaq təcrübəsi analiz edilərək müəyyən edilir ki, bir çox hallarda cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət işi üzrə materiallar kifayət qədər araşdırılmır, təhqiqatçı və ya müstəntiq cinayət törədən şəxsin yaş həddini müəyyən edərkən cinayət işinin materiallarının rədd edilməsi haqqında qərar çıxarır. Hesab edirik ki, qanunvericilik texnikası baxımından bu materiallar fərdi qaydada tədqiq edilməli və cinayətdə digər şəxslərin iştirak edib-etməməsi araşdırılmalıdır. Çünki əksər hallarda yetkinlik yaşına çatmayan şəxs digər yetkin şəxslərin təhriki və ya rəhbərliyi ilə cinayi yola təhrik edilir.

6. Cinayət-prosessual qanunvericiliyin yetkinlik yaşı tamam olmayan şəxslər barəsində icraatın xüsusiyyətlərini əhatə edən fəslində istintaq və məhkəmə təcrübəsində çətinliklər yaradan müəyyən məqamlar vardır. Belə ki, məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsiylə cinayət təqibinin qurtarması hallarında yetkinlik yaşına çatmayan şəxsin prosessual statusu dəqiq müəyyən edilməmişdir. Qanunvericilikdə yalnız bu tədbirlərin təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxsə tətbiq edilməsinin müəyyən edilməsi şübhəli şəxs barəsində cinayət təqibinə xitam verilməsi prosesində boşluqlar yaradır.

Hesab edirik ki, cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət işinə xitam verərkən cinayət təqibini həyata keçirən orqanlar qanunvericiliyin tələbindən irəli gələrək aşağıda göstərdiyimiz faktların iş üzrə mövcud olmasına diqqət yetirməlidirlər:

1. Yetkinlik yaşına çatmayanın şəxsiyyəti və onun həyat və tərbiyə şəraiti, onun cəmiyyətdən və yaxın ətrafından təcrid edilməsini zəruri edən halların mövcud olmaması;

2. Cinayətin baş vermə şəraiti (müəyyən təsir etmə nəticəsində və ya həyat şəraitinin ağır olmasından irəli gələn səbəblərdən törədilməsi);

3. Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət nəticəsində dəymiş zərərin aradan qaldırılmasına çalışması və ya cinayətin araşdırılmasında hüquq mühafizə orqanlarına köməklik etməsi və s.

4. Təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxsin gələcəkdə islah olunmasını dəqiq xarakterizə etmək üçün məhkəmə-psixoloji ekspertizanın təyin edilməsinin əhəmiyyəti vardır ki, bu zaman bu şəxsin şəxsiyyətinin psixoloji mənzərəsini formalaşdırmaq mümkündür. Bununla yanaşı, şübhəli və ya təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxsin dindirilməsində dindirilmə taktikasından düzgün və səmərəli istifadə edilməlidir.

5. Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət işinə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsiylə xitam verilməsinə əsas kimi götürülən halların araşdırılmasından belə qənaətə gəlmək olar ki, yetkinlik yaşına çatmayan şəxsə məcburi tərbiyəvi tədbirlər o zaman tətbiq edilir ki, şəxsə cəza verilməsini istisna edən hallar mövcuddur və onu cinayət məsuliyyətindən azad etmək üçün digər əsaslar yoxdur.

Cinayət işinə və cinayət təqibinə xitam verilməsi prosessual aspektdən bir-birinə yaxın olsalar da, lakin onları fərqləndirmək lazımdır. Yetkinlik yaşı tamam olmayan şəxslərə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsi prosesində cinayət-prosessual qanunvericilikdə cinayət təqibinə və ya cinayət işinə xitam verilməsi dəqiq göstərilməmişdir. Hesab edirik ki, məhkəmə cinayət törətmiş yetkinlik yaşına çatmayana məcburi tərbiyəvi tədbirlərin seçilməsi ilə bağlı olan vəsatətə baxarkən cinayət işinə xitam verir. Bu mövqenin Cinayət-Prosessual Məcəllədə əks olunmasını təklif edirik. Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsi qənaətinə gələn səlahiyyətli orqan və ya vəzifəli şəxs cinayət işi üzrə toplanmış materialları hərtərəfli, tam və obyektiv araşdıraraq, iş üzrə sübutlara qiymət verdikdən sonra məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsinə dair qərar çıxaraq, faktiki olaraq cinayət-prosessual fəaliyyəti dayandırmış olur və bu barədə

məhkəmədə vəsatət qaldırır.

6. Cinayət-Prosessual Məcəllədə yetkinlik yaşına çatmayan şəxsə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsini əks etdirən prosessual normalar kifayət qədər deyil və bu da bu institutun tətbiq edilməsində müəyyən çətinliklər yaradır. Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsin cinayət təqibini həyata keçirən təhqiqatçı və ya müstəntiqin şəxsə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsi ilə islah olunması haqqında qərarını prosessual rəhbərliyi həyata keçirən prokurorla razılaşdırılması haqqında qanunvericilikdə boşluqlar mövcuddur. Hesab edirik ki, bu haqda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təhqiqatçı və ya müstəntiq tərəfindən iş materialları göndərildikdə cinayət təqibinə xitam verilməsi barədə onun yazılı razılığının olması göstərilməlidir.

7. Yetkinlik yaşına çatmayan şəxsə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsi zamanı cinayət təqibini həyata keçirən orqan şəxsin böyük ictimai təhlükəli əməli və ya az ağır cinayət törətməsində özünü təqsirli sayması və cinayət təqibinin gedişatında köməklik göstərməsi, o cümlədən bu şəxsə cəza tətbiq etmədən islah olması qənaətinə gəldikdə cinayət təqibinə xitam verilməsi və bu barədə məhkəməyə vəsatət verməsini ilk növbədə etməlidir.

8. Məhkəmələr tərəfindən yetkinlik yaşına çatmayan şəxsə məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsi ilə cinayət işinə xitam verilərkən təqsirləndirilən şəxsin və ya onun qanuni nümayəndəsinin razılığının olub-olmaması müəyyənləşdirilməlidir. Əgər belə razılıq yoxdursa, cinayət təqibi davam etməlidir. Bununla yanaşı, cinayət təqibinin xitam verilməsi haqqında qərar çıxararkən müstəntiq yetkinlik yaşına çatmayan şəxsi və ya onun qanuni nümayəndəsini cinayət işinin materialları ilə tanış etməlidir.

9. Cəmiyyətimizin gələcəyi olan həssas və riskli kateqoriyadan olan yetkinlik yaşı tamam olmayan şəxslər tərəfindən törədilən cinayətlərin daha obyektiv, təmkinli və keyfiyyətli araşdırılması və məhkəmə baxışının təmin edilməsi üçün Yuvenal ədliyyə institutunun Azərbaycan Respublikasında yaradılması zəruri və labüddür. Bunun üçün «Yuvenal ədliyyə» haqqında qanun qəbul edilməli, yuvenal məhkəmələr, apellyasiya məhkəmələrində və Azərbaycan

Respublikası Ali Məhkəməsində Yuvenal məhkəmə kollegiyaları təşkil edilməli, beləliklə də yuvenal istintaqçılar və yuvenal hakimlər korpusu yaradılmalıdır.

10. İcra hakimiyyəti yanında yetkinlik yaşı tamam olmayan şəxslərin işləri üzrə Komissiya və DİN müvafiq inspektorlarının səlahiyyət hədləri müəyyən edilməli, qarşılıqlı əməkdaşlıqlarının mexanizmi müəyyən edilməsi yuxarıda qəbul edilməsi təklif edilən qanunvericilik aktının birbaşa icra mexanizmi olaraq çıxış edə bilər.

II. Həmçinin aparılmış dissertasiya tədqiqatının nəticəsində yetkinlik yaşı tamam olmayan şəxslər tərəfindən törədilən cinayətlərin istintaqının taktiki və prosessual problemlərinə dair elmi müddəaların araşdırılması və praktiki materialların təhlili, müəyyən elmi və təcrübi ümumiləşdirmələrin aparılması qanunvericiliyə aşağıdakı təkliflər sisteminin hazırlanmasına zəmin yaratmışdır:

1. Bu kateqoriya şəxslərin müdafiə hüququnun prosessual səviyyədə səmərəli təmini üçün AR CPM-nin 224.2-ci maddəsinə aşağıdakı redaksiyada əlavə təklif edilir:

Yetkinlik yaşına çatmayan şəxsə ittiham elan edildikdə vəkilin iştirakı məcburidir.

2. Həmçinin cinayət-prosessual qanunvericiliyin ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasına həsr edilmiş müvafiq müddəalarda yetkinlik yaşı tamam olmayan şəxslərə münasibətdə müəyyən differensasiya aparılması zəruri hesab edilir.

Belə ki, AR CPM-in 238.4-ci maddəsinə aşağıdakı redaksiyada əlavə edilməsi təklif edilir:

«Şəxsi müayinə yetkinlik yaşına çatmayan şəxs barəsində aparıldıqda müayinə yetkinlik yaşına çatmayan şəxsin fiziki və psixoloji sağlamlığına zərər yetirməyəcək şəraitdə aparılmalı və bu zaman eyni cinsdən olan vəkil, qanuni nümayəndə, həmçinin zəruri hallarda həkimin iştirakı məcburidir.

3. AR CPM-nin 239.7-ci maddəsinə «Tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə və ya onun tələbi ilə sözlərindən sonra «həmçinin tanınma yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə aparıldıqda» sözlərinin əlavə edilməsi məqsədəmüvafiq hesab edirəm.

4. AR CPM-in 246-cı maddəsinə aşağıdakı redaksiyada 246.5-ci maddənin əlavə edilməsi təklif edilir:

Şəxsi axtarış və götürmə yetkinlik yaşına çatmayan şəxs barəsində aparıldıqda valideyn (qanuni nümayəndə) və eyni cinsdən olan vəkilin iştirakı məcburidir.

5. AR CPM-in 260.3-cü maddəsinə aşağıdakı redaksiyada əlavənin edilməsi təklif edilir.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti yetkinlik yaşına çatmayan şəxs barəsində aparıldıqda vəkil, qanuni nümayəndə və ya nümayəndənin, həmçinin müəllimin istintaq hərəkətinin gedişində iştirakı məcburi təmin edilməlidir.

6. AR CPM-nin 262-ci maddəsinə aşağıdakı redaksiyada 6-cı bəndin əlavə edilməsi təklif edilir:

«İstintaq eksperimenti yetkinlik yaşına çatmayan şəxs barəsində yalnız zəruri hallarda və aparılan hərəkətlərin yetkinlik yaşına çatmayan şəxsin fiziki və əqli sağlamlığına təsir imkanı müəyyən edildikdən sonra vəkil, müəllim (psixoloq) və yekinlik yaşına çatmayan şəxsin nümayəndəsi və ya qanuni nümayəndəsinin iştirakı ilə aparılmalıdır.

7. AR CPM-nin 432.2-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif edilir:

432.2. Yetkinlik yaşına çatmayan şəxs barəsində cinayət işi üzrə icraat zamanı onun müdafiəçisinin və tanıdığı müəllimin iştirakı məcburidir. İttiham elan edilməsi zamanı iştirak edəcək müəllim haqqında əvvəlcədən cinayət törətmiş yetkinlik yaşına çatmamış şəxsə xəbər verilməli, onun buna etirazı olub olmaması aydınlaşdırılmalıdır.

8. Cinayət-prosessual qanunvericilikdə yetkinlik yaşı tamam olmayan şəxslərin cinayət işinin araşdırılması haqqında, demək olar ki, əks olunmuş normalar praktiki baxımdan tam əhatə olunmamışdır. Bununla yanaşı, təklif edirik ki, yetkinlik yaşı tamam olmayan şəxslərin cinayət işi araşdırılarkən məcburi tərbiyəvi tədbirlərin tətbiq edilməsi üçün əsaslar mövcud olduqda müstəntiqin cinayət təqibinə xitam verməsi və bu tədbirlərin məhkəmə tərəfindən tətbiq edilməsi haqda qərar çıxarılması müstəntiqin hüququ kimi deyil, məhz vəzifəsi kimi qanunvericilikdə əks olunmalıdır.

9. Bu səbəbdən də AR CPM-ə aşağıdakı məzmunda 432.8-ci maddənin əlavə edilməsini təklif edirik:

«Yetkinlik yaşına çatmayan şəxs tərəfindən böyük ictimai təhlükəli və az ağır cinayət törədilməsi ilə bağlı ibtidai araşdırma zamanı bu cinayətin ilk dəfə törədilməsi və ona cəza tətbiq etmədən islah olunacağı qənaətinə gəldikdə müstəntiq və ya təhqiqatçı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun razılığı ilə cinayət təqibinə xitam verilməsi və tərbiyəvi xarakterli məcburi tədbirin məhkəmə tərəfindən seçilməsi barədə qərar çıxarır».

10. AR CPM-nin 434.1-ci maddəsinə aşağıdakı redaksiyada əlavənin edilməsi təklif edilir:

«Ağır və xüsusi ağır cinayətin törədilməsinə istinad edildikdə sözlərindən sonra həbs qətimkan tədbirinin alternativi olan digər qətimkan tədbirləri istintaqın gedişini təhlükə altına qoyarsa» sözləri əlavə edilsin.

Qeyd edilən normaya dindirmənin aparılmasının taktiki aspektlərinə həsr edilmiş aşağıdakı müddəa bilavasitə əlavə edilməlidir:

Yetkinlik yaşına çatmayanın təqsirləndirilməsi istintaq orqanı tərəfindən mümkün qədər qeyri-rəsmi şəraitdə aparılmalıdır.

11. Cəza icra praktikasında yetkinlik yaşına çatmayan zaman cinayət törətmiş və məhkum olunmuş məhkumlar yetkinlik yaşına çatan zaman tərbiyə müəssisəsindən cəzaçəkmə müəssisəsinə köçürüldükdə artıq yaşlı məhkumlar təzəcə yetkinlik yaşına çatmış məhkumların davranışına və islah yoluna qədəm qoymasına mənfi təsir edə biləcəklərindən hesab edirəm ki, bu kateqoriyadan olan yetkinlik yaşına çatmış məhkumlar üçün xüsusi yuvenal cəzaçəkmə müəssisəsi (oğlan və qızlar üçün ayrılıqda) yaradılmalıdır. Bu məqsədlə Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 72.1-ci maddəsinə müvafiq əlavənin edilməsi təklif edilir.

72.1-ci maddə – Cinayət törədərkən yetkinlik yaşına çatmayan məhkum olunmuş şəxs yetkinlik yaşına çatdıqda yuvenal cəzaçəkmə müəssisəsinə yerləşdirilir.

12. Bu kateqoriyadan olan şəxslərin daha səmərəli müdafiəsinin təşkili üçün «Cinayət törətmiş və məhkum olunmuş yetkinlik yaşı

tamam olmayan şəxslərin reabilitasiyası haqqında qanun» qəbul edilməsi təklif edilir.

13. «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda yetkinlik yaşı tamam olmayan şəxslərin müdafiəsini həyata keçirəcək vəkillərin peşəkarlıq və psixoloji hazırlığına dair xüsusi tələblər müəyyən edilməsi tərəfimdən təklif edilir. Həmçinin yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxslərin müdafiəsini həyata keçirən vəkillərin əməyinin ödənilməsinin differensial qaydası Nazirlər Kabineti tərəfindən müəyyən edilməsi isə bu istiqamətdə çalışan ixtisaslaşmış vəkil korpusunu yaratmaqla yanaşı, onların çətin əməyini stimullaşdırmış olacaq.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi, ilk növbədə, Azərbaycan Respublikasında bu mövzuda daha əvvəllər müstəqil tədqiqat işinin aparılmaması ilə izah edilir. Bu amildən başqa, dissertasiyada əldə edilmiş nəticələrin məzmunu və xarakteri də dissertasiya tədqiqatının elmi yeniliyinə dəlalət edir. Belə ki, tədqiqat zamanı əldə edilmiş nəticələr eyni problemlərə toxunmuş müəlliflərin əldə etdiyi nəticələri təkrarlamır, müəllif tərəfindən işlənib hazırlanmış təklif və tövsiyələr hüquq yaradıcılığı və hüquq tətbiqi təcrübəsinin təkmilləşdirilməsinə yönəlmişdir. Tədqiqatın elmi yeniliyi müdafiəyə təqdim edilmiş əsas müddəalarda da təzahür olunur.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatın həm ayrı-ayrı nəticələri, həm də ümumi məzmunu nəzəri və təcrübi əhəmiyyətə malikdir. Dissertasiyanın nəzəri əhəmiyyəti onun məzmununda cinayət-prosessual qanunvericiliyin bir sıra müddəalarının təhlilinin verilməsində, işdə nəzəri ümumiləşdirmələrin aparılmasında və diqqət yetirilmiş əksər məsələlərə dair müəllif mövqeyinin bildirilməsində ifadə olunur. Dissertasiyada irəli sürülmüş təkliflər və tövsiyələr yetkinlik yaşına çatmayanlar barədə cinayət mühakimə icraatının problemlərinə həsr edilən elmi tədqiqatlar üçün nəzəri baza kimi əhəmiyyət kəsb edə bilər.

İşin təcrübi əhəmiyyəti onun nəticələrinin və bütün məzmununun bir sıra praktiki sahələrdə tətbiq edilmə imkanı ilə izah edilir. Dissertasiyanın bütün mətnindən ali məktəblərin Hüquq fakültələrində həm bakalavr, həm də magistr pillələrində Kriminalistika «Cinayət

prosesi», «İbtidai araşdırma» və s. fənlərin tədris edilməsi prosesində dərs vəsaiti kimi istifadə edilə bilər.

Tədqiqat zamanı işlənib hazırlanmış və əsaslandırılmış qanunvericilik təkliflərindən Azərbaycan Respublikası Milli Məclisinin cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi, bu istiqamətdə məhkəmə hüquq islahatlarının həyata keçirilməsi zamanı istifadə edilə bilər. Eləcə də dissertasiyada ifadə edilmiş mülahizələr yetkinlik yaşına çatmayanlar barəsində ibtidai araşdırma zamanı təhqiqat istintaq və məhkəmə orqanlarının fəaliyyətində bilavasitə istifadə edilə bilər.

**Tədqiqatın normativ əsasları.** Azərbaycan Respublikasının qanunvericilik bazası, beynəlxalq xarakterli hüquqi sənədlər, xarici ölkələrin qanunvericiliyi və s. aktlar təşkil etmişdir. Dissertasiya işində Azərbaycan Respublikasının Konstitusiyası, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi və bir sıra digər qanunları ilə yanaşı, müvafiq qanunlarından istinadlar edilmişdir.

Tədqiqat zamanı dissertasiya mövcud vəziyyətin təhlili, problemlər və onların həlli yollarının müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin və Ali Məhkəməsinin Plenum Qərarlarından da geniş istifadə edilmişdir. Dissertasiyanın müqayisəli tədqiqatlarla aparılmasını təmin etmək üçün Rusiya və digər xarici ölkələrin də qanunvericiliyindən istifadə edilmişdir.

**Aprobasiyası və tətbiqi.** Təqdiqat işinin əsasları və nəticələri müəllif tərəfindən nəşr edilmiş elmi məqalələrdə, beynəlxalq və milli konfranslada edilmiş çıxışlarda öz əksini tapmışdır. Dissertasiya mərhələli şəkildə Kriminalistika kafedrasının iclaslarında, kafedrada keçirilən elmi seminarlarda müzakirə olunmuşdur.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya işi Girişdən ( səhifə 4-17), özündə on bir paraqraf birləşdirən üç fəsildən (səhifə 18-151), nəticədən (səhifə 152-160) , istifadə edilmiş ədəbiyyat siyahısından (səhifə 161-170), əlavələrdən (səhifə 171-199) bütövlükdə isə 199 səhifədən (50392 sözdən) ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Kriminalistika və məhkəmə ekspertizası kafedrasında, kafedranın professor və müəllim heyətinin köməkliyi ilə yerinə yetirilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı, mövzunun elmi işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodologiyası və metodikası, tədqiqatın nəzəri və normativ bazası, tədqiqatın elmi yeniliyi, dissertasiya tədqiqatının əsas məqsədlərinə nail olmaq üçün irəli sürülən elmi və praktiki təkliflər sistemi işıqlandırılmışdır.

Dissertasiya işinin **birinci fəsli "Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin istintaqının, sosial mahiyyəti, vəzifələri və əhəmiyyəti"nə** həsr edilmişdir. Bu fəsil iki paraqrafdan ibarətdir.

Birinci paraqraf **"Yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə mühakimə icraatının tarixi inkişafı (beynəlxalq və milli aspektlər)"** adlanır. Yetkinlik yaşına çatmayan şəxslərin cinayət məsuliyyəti məsələsinə ilk dəfə 1715-ci il tarixdə qəbul edilmiş "Döyüş Artikulu"nda toxunulmuşdu. Digər bir sənəd olan "Cinayət və İslah cəzaları haqqında" 1845-ci il Qanunlar toplusunda isə yetkinlik yaşına çatmayan şəxslərin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi məsələsi işıqlandırılmışdır. Bu topluda yetkinlik yaşına çatmayan şəxsin cinayət məsuliyyətinə cəlbetmə üçün minimum yaş həddi 7 yaş müəyyən edilsə də, əksər hallarda yetkinlik yaşına çatmayan şəxslər 10 yaşdan cinayət məsuliyyətinə cəlb edilirdilər.

Daha sonrakı dövrlərdə 17 aprel 1863-cü il tarixdə "Cinayət və islah cəzalarının sisteminə bir sıra dəyişikliklər edilməsi barədə" Fərmana əsasən bu kateqoriyadan olan şəxslərə tətbiq edilən cismani cəzalar ləğv edildi.

1864-cü il tarixdə qəbul edilmiş "Barışdırıcı hakimlər tərəfindən tətbiq edilən cəzalar haqqında nizamnamə" ağır cinayət törətməyən yetkinlik yaşına çatmayan şəxslər barədə cinayət məhkəmə icraatını "Sülh məhkəmələri"nin yurisdiksiyasına aid etmişdir.

Daha bir sənəd olan 05 dekabr 1866-cı il tarixli "Yetkinlik yaşına çatmayan cinayətkarların əxlaqi tərbiyəsi üçün sığınacaq və koloniyaların təsis edilməsi haqqında" Qanun olmuşdur. Bu qanunda

büdcə vəsaitləri, zemstvolar, himayə təşkilatlarından daxil olmuş maliyyə vəsaitləri hesabına koloniya və sığınacaqların yaradılmasını təsbit etmişdir.

Qəbul edilən aktlara baxmayaq, yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin sayının artması yeni qanunların qəbulunu zəruri etdi.

02 iyun 1897-ci il tarixdə Rusiya çarı II Nikolay "Cinayət və islah cəzaları haqqında" Külliyata dəyişiklik etdi. Dəyişikliyə əsasən yetkinlik yaşın çatmayan şəxslər ehtiyatsızlıqdan törədilmiş cinayətə görə valideyn və ya himayəçinin zaminliyinə verilməklə məsuliyyətdən azad edilirdilər.

1903-cü il tarixdə qəbul edilmiş "Cinayət və islah cəzaları haqqında" Qanunlar Külliyatında cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi kimi 10 yaş müəyyən edilmişdi. Yetkinlik yaşına çatmayan şəxslər yetkinlik yaşına çatanadək cəzalarını çəkmək üçün monastrlara, qızlar isə qadın monastrlarına göndərilirdilər.

Ümumilikdə SSRİ-də yetkinlik yaşına çatmayan şəxslərin işləri üzrə ədalət mühakiməsinin inkişafı 3 mərhələdən keçib:

1. 1918-ci il 17 yanvar-1935-ci il 7 aprel - "Yetkinlik yaşına çatmayan şəxslər üzrə komissiya"nın yaradılması;

2. 7 aprel 1935-27 oktyabr 1960-cı il - "Yetkinlik yaşına çatmayan şəxslərin işləri üzrə xüsusi məhkəmənin yaradılması";

3. 27 oktyabr 1960-cı il-1989-cu illər –Yetkinlik yaşına çatmayan şəxslərin işlərinə səyyar məhkəmələrdə baxılması, məhkəmə iclasının qapalı keçirilməsi, pedaqoqun iştirakı, yetkinlik yaşına çatmayan şəxslərin işləri üzrə komissiyanın bərpası.

İkinci paraqraf "**Yetkinlik yaşına çatmayan şəxslərin cinayət mühakimə icraatı ilə bağlı beynəlxalq standartlar və tövsiyələr**" adlanır. Müasir dövrdə dövlətlərarası siyasi və hüquqi münasibətlərin tənzimlənməsində beynəlxalq hüquq xüsusi rola malikdir. Təsadüfi deyildir ki, 1990-1999-cu illər BMT-nin Baş Assambleyası tərəfindən beynəlxalq hüququn 10 illiyi adlandırılmışdır. 10 illiyin əsas məqsədi beynəlxalq hüququn prinsiplərinin qəbulu və onlara hörmətdir.

Son dövrlər uşaq hüquqlarının müdafiəsi həm dövlətdaxili, həm də beynəlxalq səviyyədə mühüm məsələyə çevrilib. İlk dövrlərdə uşaq hüquqlarının müdafiəsi hər hansı dövlətin sərhədi ilə məhdudlaşırdı və bu daha az effektiv nəticə verirdi. Bundan sonra dövlətlər bu sahədə öz səylərini birləşdirmək qənaətinə gəlmiş və məsələ beynəlxalq səviyyəyə qalxmışdır. Ümumiyyətlə, insan hüquqlarının beynəlxalq müdafiəsinin məqsədi dövlətlərin belə müdafiəni beynəlxalq hüquqa xass olan üsul və vasitələrlə həyata keçirməyə cəlb etməkdir.

Yetkinlik yaşına çatmayan şəxslər barəsində ədalət mühakiməsinin həyata keçirilməsi zamanı dövlətdaxili hüquqla yanaşı, rəhbər tutulmalı olan beynəlxalq sənədlər Pekin qaydaları kimi tanınan "Yetkinlik yaşına çatmayan şəxslər barəsində ədalət mühakiməsinin həyata keçirilməsinin minimal standart qaydaları" (1985), "Uşaq hüquqları konvensiyası" (1989), Ər-riyad prinsipləri kimi tanınan BMT-nin "Yetkinlik yaşına çatmayan şəxslər arasında cinayətin qarşısının alınması üçün rəhbər prinsipləri" (1990) hesab edilir.

BMT-nin uşaqlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə yanaşması özündə iki yolu birləşdirir:

1. Qanunun aliliyi prinsipi ilə əlaqəli təşəbbüslərdə yetkinlik yaşına çatmayanlara üstünlük vermə;
2. Yetkinlik yaşına çatmayan şəxslər barəsində ədalət mühakiməsinin həyata keçirilməsində qanunun aliliyinin möhkəmləndirilməsi və uşaq hüquqlarına tam riayət edilməsinə tam təminatı nəzərdə tutur.

Dissertasiya işinin **ikinci fəsli "Yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə məhkəməyə qədər icraatın kriminalistik və prosessual aspektləri"** nə həsr edilmişdir. Bu fəsil 5 paraqrafdan ibarətdir.

Birinci paraqraf **"Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlər üzrə cinayət işi başlamanın taktiki və psixoloji aspektləri"**nə həsr edilmişdir.

Qanunvericiliyə əsasən yetkinlik yaşına çatmayanların cinayət işi üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq formasında aparıla

bilər. Yetkinlik yaşına çatmayanların cinayət işinin ibtidai istintaq formasında araşdırılmasının mahiyyəti ondan ibarətdir ki, yetkinlik yaşına çatmayan şəxs sərbəst olaraq prosessual hüquq və vəzifələrini həyata keçirə bilmədikləri üçün prosesin obyektiv aparılması müstəntiqin üzərinə düşür.

Cinayət törətmiş yetkinlik yaşına çatmayana qarşı cinayət işinin başlanması cinayət prosesində müstəntiq tərəfindən işin araşdırılmasına yönəlmiş ilk addım hesab etmək olar. Cinayət işinin başlanması cinayət prosesinin ilkin və müstəqil mərhələsidir. Öz vəzifələrinə, iştirakçıların dairəsinə, prosessual münasibətlərin xüsusiyyətlərinə, müddətlərinə və sonda qəbul edilən qərarların növlərinə görə digər mərhələlərdən fərqlənir. Cinayət işi başlama mərhələsinin qarşısında duran vəzifə cinayət işi başlamağa qanuni səbəblərin cinayətin əlamətlərinə işarə edən kifayət qədər əsasların, eləcə də cinayət işi başlamanı rədd edən halların olub-olmamasını müəyyən etmək və bununla bağlı cinayət işi başlama haqqında məsələni həll etməkdən ibarətdir. Bu mərhələdə cinayət hadisəsinin olmasının qəti və tam şəkildə müəyyən edilməsi tələb olunmur. Qanunvericilik AR CPM-nin 209.1-ci maddəsinə əsasən bu məcəllədə nəzərdə tutulmuş səbəblər və əsaslar mövcud olduğu hallarda təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən dərhal cinayət işinin başlamalı olması qaydasını müəyyən edir. Hesab edirik ki, cinayət işi başlama mərhələsində artıq cinayət qanunu ilə qadağan olunan əməlin törədilməsi ilə bağlı kifayət qədər əsaslar müəyyən edilərsə, müstəntiq işlərin araşdırılması zamanı bu kateqoriya cinayət işləri üzrə icraat üçün qanunvericilikdə nəzərdə tutulan xüsusiyyətləri və kriminalistik-psixoloji aspektləri nəzərə almalıdır.

İkinci paraqraf **"Yetkinlik yaşına çatmayan şəxslərin şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb etmənin (ittiham elan edilməsinin) taktiki və psixoloji aspektləri"** adlanır.

Müstəntiq yetkinlik yaşına çatmayanı təqsirləndirilən şəxs qismində cəlb etməmişdən öncə cinayət işi üzrə aşağıda sadalanan hallar üzrə sübutların olmasına diqqət yetirməlidir:

1. Cinayət hadisəsinin baş vermə faktı və halları;

2. Şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsi;

3. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətləri;

4. Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirliliyi;

5. Cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar;

6. Qanunvericilikdə başqa hal nəzərdə tutulmamışsa, cinayət prosesi iştirakçısının və ya cinayət prosesində iştirak edən digər şəxsin öz tələbini əsaslandırdığı hallar.

Təqsirləndirilən şəxs qismində cəlbetmə aktı cinayət məsuliyyətinə cəlb etmənin ilkin mərhələsi saymaq olar və bu da yetkinlik yaşına çatmayan şəxsin konstitusion hüquqlarının məhdudlaşmasına gətirib çıxarır. Məhz bu baxımdan müstəntiq təqsirləndirilən şəxs qismində cəlbetmə qərarını verməzdən öncə cinayət işini hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin təyinatı ondan ibarətdir ki, cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına alınmasın, ittiham və ya məhkum etmək mümkün olmasın, heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın.

Üçüncü paraqrafda **"Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayət işləri üzrə sübutetmənin kriminalistik təminatının xüsusiyyətləri"** işıqlandırılmışdır.

Cinayət prosesində sübutetmə prosesi sübutların toplanması, yoxlanılması və qiymətləndirilməsi üzrə fəaliyyətdir. Qanunvricilik bu prosesdə müvafiq olaraq üç elementi fərqləndirir: sübutların toplanılması, sübutların yoxlanılması və sübutların qiymətləndirilməsi.

Cinayət-Prosessual Məcəlləsinin 429-cu maddəsində yetkinlik yaşına çatmayanlar barəsində icraat zamanı müəyyən edilməli olan halların dairəsi göstərilmişdir:

1. Yetkinlik yaşına çatmayanın yaşı (doğulduğu il, ay, gün);

2. Yetkinlik yaşına çatmayanın həyat və tərbiyə şəraiti;

3. Yetkinlik yaşına çatmayanın fiziki intellektual və əqli inkişaf səviyyəsi;

4. Yetkinlik yaşına çatmayanın törətdiyi cinayətdə digər iştirakçılar olduqda onun barəsində cinayət işinin icraatının ayrılmasının mümkünlüyü.

Yuxarıda göstərilənlərlə yanaşı yetkinlik yaşına çatmayan şəxslərin ibtidai araşdırılmasını həyata keçirən müstəntiq cinayət hadisəsinin baş vermə faktı və hallarını, şübhəli və ya təqsirləndirilən şəxsin cinayət hadisəsi ilə əlaqəsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməldə cinayətin əlamətlərini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şəxsin təqsirliliyini, cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən və ağırlaşdıran halları, CPM-də başqa hal nəzərdə tutulmamışsa, cinayət prosesi iştirakçısının və ya cinayət prosesində iştirak edən digər şəxsin öz tələbini əsaslandırdığı halları müəyyən etməyə borcludur.

4-cü paraqraf **"Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərin tutulması və tətbiq edilən cinayət prosessual məcburiyyət tədbirlərinin düzgün seçilməsinin nəzəri və təcrübi əhəmiyyəti"** adlanır.

Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin araşdırılması cinayət-prosessual qanunvericiliyə əsasən xüsusi icraatda həyata keçirilməlidir. Bu prioritet Azərbaycan Respublikasının Konstitusiyasından və beynəlxalq konvensiyalardan irəli gəlir. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər və uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. "Mülki və siyasi hüquqlar haqqında" 1966-ci il beynəlxalq aktın 10-cu maddəsinə əsasən təqsirləndirilən yetkinlik yaşına çatmayanlar digər şəxslərdən təcrid edilməli və qısa müddət ərzində işləri məhkəməyə verilməlidir.

Yetkinlik yaşına çatmayan şəxsin tutulmasının faktiki əsaslarını deduksiya edib fərqləndirmək lazımdır. Yetkinlik yaşına çatmayan

şəxsin tutulmasının faktiki əsaslarını iki qrupa ayırmaq olar. Birinci qrupa daxil olan əsaslar aşağıdakılardır:

a) şəxsin ictimai təhlükəli əməli törətdiyi zaman yaxalanması;

b) cinayət əməlini törətdikdən bilavasitə sonra şəxsin saxlanılması;

c) cinayət əməli nəticəsində zərərçəkmiş və ya hadisəni görən digər şəxslər cinayəti həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərməsi;

d) şübhə edilən şəxsin paltarında, bədənində, yaşayış yerində və ya nəqliyyat vasitəsində cinayət əməlinin törədilməsini göstərən aşkar izlərin müəyyən edilməsi.

İkinci qrupa aid olan əsaslara aşağıdakıları daxil etmək olar:

a) cinayət əməlini törədib hadisə yerindən qaçıb gizlənməyə cəhd göstərməsi;

b) şübhə edilən şəxsin daimi yaşayış yerinin olmaması;

c) cinayət törətməkdə şübhəli bilinən şəxsin şəxsiyyətinin müəyyən edilməməsi;

d) cinayət prosesini həyata keçirən orqanlardan gizlənməyə çalışması.

Yetkinlik yaşına çatmayan şəxsin tutulmasına əsas olan zərərçəkmiş və ya şahidlər dindirilərkən hüquq mühafizə orqanları qarşısında müəyyən məsələlərin aydınlaşdırılması vacibdir. İlk növbədə cinayətin baş vermə şəraiti, yəni cinayətin günün hansı vaxtında baş verməsi, meteoroloji şərait, işıqlanmanın hansı səviyyədə olması, qavrama obyektindən olan məsafə, qavramaya təsir edən subyektiv faktorlar dəqiq tədqiq edilməlidir. Yuxarıdakılarla yanaşı, cinayət törətmiş şəxsin xarici görkəmi, gözünün rəngi, cinsi, irqi, saç quruluşu və s. xüsusiyyətləri haqqında suallar qoyulmalıdır. Cinayət törətməkdə şübhəli bilinən yetkinlik yaşına çatmayan şəxslə zərərçəkmiş və şahidlər arasında olan münasibətləri sorğu-sual predmeti olmalıdır.

Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxsə həbs qətimkan tədbiri seçilərkən məlumdur ki, ilk növbədə müstəntiq vəsatətlə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, prokuror isə təqdimatla məhkəməyə müraciət etməlidir.

Cinayət təqibini həyata keçirən orqanların qərarında yetkinlik yaşına çatmayan şəxsə həbs qətimkan tədbiri seçilməsinin səbəb və əsasları göstərilməklə yanaşı, bu şəxsə digər qətimkan tədbirlərinin seçilə bilməməsi də əsaslandırılmalıdır.

Yetkinlik yaşına çatmayan şəxslərə həbs qətimkan tədbirinin əvəzinə ev dustaqlığının seçilməsi məqsədəuyğun sayılmalıdır. Bununla yanaşı, məhkəmə ev dustaqlığını təyin edərkən AR CPM-nin 163.3-cü maddəsinə əsasən barəsində ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxsin yaşayış yerini tamamilə və ya günün müəyyən vaxtlarında tərk etməmək, elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək, məhkəmənin müəyyən etdiyi ərazi hüdudlarını tərk etməmək, məhkəmənin müvafiq qərarı olmadan yaşayış yerini dəyişməmək kimi vəzifələrin qoyulmasını müəyyən edir.

Yetkinlik yaşına çatmayan şəxslərə tətbiq edilən qətimkan tədbirlərindən biri də CPM-nin 164-cü maddəsində əks olunmuş girovdur. Yetkinlik yaşına çatmayan qəsdən zorakı xarakter daşıyan az ağır cinayət törətdikdə, ehtiyatsızlıqla ağır və ya xüsusilə ağır cinayət törətdikdə həbsə alternativ olaraq məhkəmə həbsin əvəzinə girov götürə bilər.

Beşinci paraqraf **"Yetkinlik yaşına çatmayan şəxslərin cinayət işinin araşdırılmasında dindirmənin xüsusiyyətləri"nə** həsr edilmişdir.

Cinayət prosesində dindirmənin düzgün həyata keçirilməsindən, yəni cinayət prosesini həyata keçirən orqanlar tərəfindən dindirmə prosesində cinayət-prosessual qanunvericiliyin müddəalarına riayət edilməsindən və taktiki üsulların dəqiq seçilməsindən asılı olaraq baş vermiş cinayət haqqında yeni sübutlar əldə etmək olar.

Elmi araşdırmanın predmeti olan yetkinlik yaşına çatmayan şəxslərin cinayət işinin araşdırılmasında dindirmə prosesi fərqləndirilməlidir. Bu baxış Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 226.3, 228, 231, 232, 233 və 432-ci maddələrinin müddəalarından irəli gəlir. Qanunvericiliyə əsaslanaraq, deyə bilərik ki, cinayət prosesində yetkinlik yaşına

çatmayan şəxslərin iştirakından asılı olaraq dindirməni aşağıdakı kateqoriyalar üzrə fərdiləşdirmək olar:

1. Yetkinlik yaşına çatmayan şübhəli şəxsin dindirilməsi;
2. Yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin dindirilməsi:
3. Yetkinlik yaşına çatmayan zərərçəkmiş şəxsin dindirilməsi;
4. Yetkinlik yaşına çatmayan şahidin dindirilməsi.

Dissertasiya işinin **üçüncü fəsli "Yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə ibtidai araşdırmanın qurtarmasının prosessual və taktiki əsasları"** adlanır və 4 paraqrafdan ibarətdir.

Birinci paraqraf **"Yetkinlik yaşına çatmayanlar şəxslərin cinayət işləri üzrə ibtidai araşdırmanın qurtarmasının nəzəri və təcrübi problemləri, taktiki əsasları"** adlanır.

Yetkinlik yaşına çatmayan şəxslərin cinayət işləri üzrə aparılan ibtidai araşdırmanın son mərhələsi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 219-cu maddəsinə əsasən həyata keçirilir. AR CPM-in 219.1-ci maddəsinə əsasən ibtidai araşdırma ittiham aktının tərtib edilməsi ilə, tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün cinayət işinin məhkəməyə göndərilməsi haqqında və ya cinayət işi üzrə icraata xitam verilməsi haqqında qərarla qurtarır.

Cinayət-Prosessual Məcəlləsinin L fəslində (428-435-ci maddələri) yetkinlik yaşına çatmayanlar barəsində icaraatın xüsusiyyətləri əks olunduğu halda yetkinlik yaşına çatmayan şəxslərin törətdikləri cinayət üzrə ibtidai araşdırmanın qurtarmasının 219-cu maddəyə əsaslanması hesab edirik ki, düzgün deyildir. Çünki qanunun bu maddəsində yetkinlik yaşına çatmayan şəxslər üzrə xüsusi məqamlar öz əksini tapmamışdır.

Qanunvericiliyin tələbindən irəli gələrək deyə bilərik ki, ibtidai araşdırmanın qurtarmasının aşağıdakı formaları vardır:

1. İttiham aktının tərtib edilməsi və ibtidai araşdırmaya prosessual rəhbərlik edən prokuror tərəfindən imzalanaraq cinayət işinin məhkəməyə göndərilməsi ilə ibtidai araşdırmanın qurtarması;

2. İbtidai araşdırma zamanı cinayət əməlini törətmiş şəxsin cinayət törədərkən anlaqsız vəziyyətdə olmasını və ya cinayət törətdikdən sonra ruhi xəstəliyə düçar olması aşkar edildikdə cinayət

törətmiş şəxsin barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün cinayət işinin məhkəməyə göndərilməsi ilə nəticələnən ibtidai araşdırmanın qurtarması;

**3.** İbtidai araşdırmanın qurtarmasının digər bir forması ibtidai istintaq zamanı cinayət işi üzrə icraata xitam verilməsi ilə mümkündür. Belə ki, ibtidai istintaq zamanı CPM-nin 39-41 və 46.5-ci maddələrində nəzərdə tutulan hallar aşkar edildikdə qanunvericiliyə əsasən cinayət işi üzrə icraata xitam verilir.

İkinci paraqraf "**Cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs üzrə ibtidai araşdırmanın qurtarmasının xüsusiyyətləri**"nə həsr edilmişdir.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmadığını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən etməklə yanaşı, cinayət törətmiş hər bir şəxsi ifşa edərək cinayət məsuliyyətinə cəlb edilməsinə, cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmamasına, o cümlədən heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmamasına yönəlmişdir.

Cinayət-prosessual hüquq münasibətlərinin yaranması üçün, ilk növbədə cinayət qanunvericiliyində nəzərdə tutulmuş cinayətin baş verməsi və cinayət törətmiş şəxsin qanunla müəyyən edilmiş yaş həddinə çatması vacib şərtlərdir.

Təsadüfi deyildir ki, ibtidai araşdırmanın qurtarması şərtlərinə əsasən cinayət təqibinə xitam verilməsi əsaslarında cinayət törədən şəxsin qanunla müəyyən edilmiş yaş həddinə çatması məsələsi birbaşa nəzərdə tutulur. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 219-cu maddəsinə və 39-41-ci maddələrinə əsasən baş vermiş cinayət hadisəsində cinayət tərkibinin bütün elementlərinin

məcmusu olmadıqda və ya cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin baş verdiyi anda onu törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmadıqda cinayət təqibinə xitam verilir.

Üçüncü paraqraf "**Psixi inkişafdan geri qalmış yetkinlik yaşına çatmayan şəxslərin cinayət işinə xitam verilməsi**"nə həsr edilmişdir.

Cinayət-prosessual və cinayət hüquqi baxımından yetkinlik yaşına çatmayan şəxsin törətdiyi əməlin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və yaxud da idarə etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntu ilə əlaqədar olmayan psixi inkişafdan geri qalmasıyla bağlı cinayət işinə xitam verilməsinin tədqiq edilməsinin nəzəri və təcrübi əhəmiyyəti böyükdür.

Yetkinlik yaşına çatmayan şəxsin psixi inkişafdan geri qalması nəticəsində cinayət törətməsi və ya həmin şəxsin prosessual araşdırılmasına xitam verilməsi özü-özlüyündə mürəkkəb və qarşılıqlı şərtlərlə xarakterizə olunur. Yetkinlik yaşına çatmayan şəxsin psixi inkişafdan geri qalması hüquq və tibb elmində daima tədqiqata ehtiyacı olan bir mövzu kimi qiymətləndirilir. Bu halın araşdırılmasına psixologiya, yaş psixologiyası, pedaqogika, patopsixologiya, psixopatologiya və məhkəmə ekspertizasının predmeti kimi tədqiq edilməsinə rast olunur.

Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 iyun 2008-ci il tarixli qərarında məhkəmələrə tövsiyə olunmuşdur ki, yetkinlik yaşına çatmayan şəxs onun cinayət məsuliyyətinə cəlb olunmasına imkan verən yaşa çatdıqda, lakin öz hərəkətinin (hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliyini dərk etmək və yaxud da onları idarə etmək qabiliyyətini məhdudlaşdıran psixi pozuntu ilə əlaqədar olmayan psixi inkişafdan geri qaldıqda, o, cinayət məsuliyyətinə cəlb edilməyə bilər.

Dördüncü paraqraf "**Tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməsi ilə əlaqədar olaraq ibtidai araşdırmanın qurtarması**" adlanır.

Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən cinayət hadisəsi üzrə aparılan ibtidai araşdırmanın qurtarması formalarından biri kimi yetkinlik yaşına çatmayan şəxsə tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsilə əlaqədar ibtidai araşdırmanın qurtarmasını göstərmək olar.

Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərə tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi üçün aşağıda göstərdiyimiz hallar mövcud olmalıdır:

1. Cinayət törətməkdə ittiham olunan şəxs 18 yaşına çatmamalı, yetkinlik yaşına çatmayan şəxs olmalıdır;

2. Yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətdikdə;

3. Yetkinlik yaşına çatmayanın cəza tətbiq etmədən islah olunmasına dair kifayət qədər materiallar toplanmalıdır;

4. Tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə ibtidai araşdırmaya son qoyulmasıyla bağlı yetkinlik yaşına çatmayan şəxslər məlumatlandırılmalıdır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 87-ci maddəsində cinayət törətməkdə təqsirli bilinən yetkinlik yaşına çatmayan şəxsə tətbiq edilən tərbiyəvi xarakterli məcburi tədbirlərin növləri əks olunmuşdur:

1. Xəbərdarlıq;

2. Valideynlərin və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanının nəzarətinə verməl;

3. Vurulmuş ziyanın aradan qaldırılması vəzifəsini həvalə etmək;

4. Yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun davranışı ilə bağlı xüsusi tələblər müəyyən etmək.

Cinayət-prosessual qanunvericiliyin yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətlərini əhatə edən fəslində istintaq və məhkəmə təcrübəsində problemlər yaradan nüanslar vardır. Belə ki, tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsiylə cinayət təqibinin qurtarması hallarında yetkinlik yaşına çatmayan şəxsin prosessual statusu dəqiq müəyyən edilməmişdir. Qanunvericilikdə yalnız bu tədbirlərin təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxsə tətbiq edilməsinin müəyyən edilməsi prosesdə şübhəli şəxs qismində

tətbiq edilərək cinayət təqibinə xitam verilməsi prosesində boşluqlar yaradır.

**Nəticə** hissəsində əsas nəzəri ümumiləşdirmələr və təkliflər sistemləşdirilmiş şəkildə təqdim edilmişdir.

**Əlavələr** hissəsində aparılmış dissertasiya tədiqiatı ilə əlaqədar cədvəl, sxemlər və anket əlavə edilmişdir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr edilmişdir:**

1.Yetkinlik yaşına çatmayan şəxslərin yaşı onlar barəsində cinayət mühakimə icraatının həyata keçirilməsinin zəruri şərti kimi // - Bakı: Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiyanın Aktual Məsələləri jurnalı, - 2015. № 63, - s. 187-189.

2.Yetkinlik yaşına çatmayan şəxslər barəsində ədalət mühakiməsinin həyata keçirilməsinin müasir problemləri // - Bakı: Qanun jurnalı, - 2015. № 04, - s. 93-96.

3.Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının həyata keçirilməsi zamanı konfidensiallığın təmini problemləri // - Bakı: Qanun jurnalı, - 2016. № 11, - s. 102-106.

4.Psixi anomaliyalı yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin istintaqının problem məsələləri // - Bakı: Qanun jurnalı, - 2016. № 1, - s. 63-68.

5.Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət təqibinə xitam verilməsinin bəzi məsələlərinə dair // - Bakı: Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiyanın Aktual Məsələləri jurnalı, - 2017. № 65, - s. 336-340.

6.Некоторые особенности доказывания при расследовании преступлений, совершенных несовершеннолетними //-Москва: Пробелы в Российском законодательстве, - 2020. № 05, - s. 219-222.

7. Yetkinlik yaşına çatmayan şəxslər barəsində məhkəmə icraatının xüsusiyyətləri: beynəlxalq və milli aspektlər kontekstində // - Bakı: Qanun jurnalı, - 2022. № 12, - s. 96-100.

8. Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayət işlərinin istintaqına dair beynəlxalq standart və tövsiyələr // Bakı Dövlət Univerisiteti Hüquq fakültəsi Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin Anadan Olmasının 93-cü İldönümünə Həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda Hüquqi Dövlət Quruculuğu" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans, - Bakı: - 3 iyun 2016-cı il, - s. 122-124.

9. Yetkinlik yaşına çatmayan şəxslər barəsində tərbiyəvi xarakterli

tədbirlərin tətbiqi ilə cinayət təqibinə xitam verilməsinə dair // Bakı Dövlət Univeristeti Hüquq fakültəsi Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin Anadan Olmasının 94-cü İldönümünə həsr olunmuş "Müasir Dövrdə Azərbaycan Respublikasında Hüquq Elminin və Təhsilinin Əsas İnkişaf Tendensiyaları" Beynəlxalq Elmi-praktiki Konfrans, - Bakı: - 2 iyun 2017-ci il, - s. 207-208.

10. Тактико-психологические аспекты допроса несовершеннолетних // Legal activity Beynəlxalq elmi-praktiki konfrans, - Kiyev: Legal activity, - 2017, - s. 98-102.

Dissertasiyanın müdafiəsi 25 11 2024-cü il tarixdə, saat 14 : 00 -da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 10 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.10.2024-cü il
Kağızın formatı: A5 (210 x 148 mm)
Həcm: 53822 işarə
Tiraj: 120